# "AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

31 dekabr 2021-ci il tarixində başa çatan il üzrə
Konsolidə edilmiş maliyyə hesabatları

Deloitte.

Deloitte & Touche MMAC
Bakı Ağ Şəhər Ofis Binası,
25E 8 Noyabr pr.,
Bakı, AZ1025, Azərbaycan
Tel: +994 (12) 404 12 10
Fax: +994 (12) 404 12 11
www.deloitte.az

# MÜSTƏQİL AUDİTOR HESABATI

"AZƏRENERJİ" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarına və Rəhbərliyinə:

**Rəy**

Biz "AZƏRENERJİ" Açıq Səhmdar Cəmiyyəti və onun törəmə müəssisələrinin ("Qrup") 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidə edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətlərinin icmalı daxil olmaqla, qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditini həyata keçirdik.

Bizim fikrimizcə konsolidə edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2021-ci il tarixinə konsolidə olunmuş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidə edilmiş maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatları üzrə Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

**Rəyin əsasları**

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq həyata keçirdik. Həmin standartlar üzrə bizim məsuliyyətimiz irəlidə hesabatın *Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti* bölməsində təsvir olunur. Biz, Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının *Peşəkar Mühasiblər üçün Etika Məcəlləsinə* ("MBESŞ Məcəlləsi") uyğun olaraq Qrupdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk və etika ilə bağlı digər öhdəliklərimizi MBESŞ Məcəlləsinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və uyğun əsası təmin edir.

**Digər məlumat**

Rəhbərlik digər məlumata görə cavabdehdir. Digər məlumat fəaliyyət sahələrinə dair məlumatdan ibarətdir, lakin konsolidə edilmiş maliyyə hesabatlarını və uyğun olaraq bizim auditor hesabatımızı əhatə etmir.

Konsolidə edilmiş maliyyə hesabatları haqqında rəyimiz digər məlumatı əhatə etmir, müvafiq olaraq biz bununla bağlı hər hansı şəkildə əminlik ifadə etmirik.

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

© 2022 Deloitte & Touche MMAC. Bütün hüquqlar müdafiə olunub.

Konsolidə edilmiş maliyyə hesabatlarının auditi ilə əlaqədar bizim məsuliyyətimiz digər məlumatla tanış olmaqdan və bunu edərkən digər məlumatın konsolidə edilmiş maliyyə hesabatları və ya audit zamanı əldə etdiyimiz məlumatlarla əhəmiyyətli dərəcədə uyğunsuz olub-olmadığını və ya hər hansı digər şəkildə əhəmiyyətli dərəcədə təhrif olunmuş kimi göründüyünü nəzərdən keçirməkdən ibarətdir. Əgər yerinə yetirdiyimiz iş əsasında digər məlumatın əhəmiyyətli şəkildə təhrif olunduğu müəyyən etsək, bu fakt barədə hesabat verməyimiz tələb olunur. Bizim bununla bağlı hesabat verəcəyimiz heç bir fakt yoxdur.

**Konsolidə edilmiş maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetmə səlahiyyətləri olan şəxslərin məsuliyyəti**

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhriflərin olmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasını təmin etmək üçün rəhbərliyin zəruri saydığı daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Qrupu ləğv etmək və ya əməliyyatları dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri olan şəxslər Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti**

Bizim məqsədimiz ümumilikdə konsolidə edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək mühüm təhriflərin olmaması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik yüksək səviyyəli əminliyi əks etdirir, lakin bu, BAS-a uyğun olaraq aparılan audit nəticəsində hər zaman mövcud olan bütün mühüm təhriflərin aşkar ediləcəyinə zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu halda götürməklə, istifadəçilərin hazırkı konsolidə edilmiş maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı hallarda əhəmiyyətli hesab edilir.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi kimi, biz audit zamanı peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi qoruyub saxlayırıq. Biz həmçinin:

- Konsolidə edilmiş maliyyə hesabatlarının fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli şəkildə təhrif olunması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını tərtib edir və həyata keçirir, həmçinin rəyimiz üçün əsas verəcək yetərli və uyğun audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar olunmaması riski səhv nəticəsində yaranmış mühüm təhriflərin aşkar olunmaması riskindən yüksəkdir, belə ki, fırıldaqçılığa gizli sövdələşmə, fırıldaqçılıq, qəsdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.
- Müəyyən şəraitlərdə münasib olan audit prosedurlarının tərtib edilməsi məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Qrupun daxili nəzarət sisteminin səmərəliliyi barədə rəy bildirmək məqsədi güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş mühasibat uçotu siyasətlərinin münasibliyini, edilmiş uçot təxminlərinin və aidiyyəti açıqlamaların əsaslılığını qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadənin müvafiqliyi və əldə olunmuş audit sübutuna əsaslanaraq Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə şübhə yarada biləcək hadisə və ya şəraitlərlə bağlı mühüm qeyri-müəyyənliyin mövcud olub-olmaması barədə nəticə çıxardırıq. Mühüm qeyri-müəyyənliyin olması qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda diqqəti konsolidə edilmiş maliyyə hesabatlarının müvafiq açıqlamalarına yönəltməli və ya belə açıqlamalar qeyri-kafi olduqda rəyimizə düzəliş etməliyik. Bizim nəticələr auditor hesabatımızın tarixinədək əldə olunan audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisə və şəraitlər Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməməsinə səbəb ola bilər.
- Konsolidə edilmiş maliyyə hesabatlarının ümumi təqdimatı, struktur və məzmunu, o cümlədən açıqlamaları və konsolidə edilmiş maliyyə hesabatlarının təməl əməliyyat və hadisələri düzgün əks etdirib-etdirməməsini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri olan şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi və müddəti, audit üzrə aşkar olunan mühüm nəticələr, habelə audit zamanı daxili nəzarət sahəsində aşkar etdiyimiz hər hansı mühüm çatışmazlıqlar barədə məlumat veririk.

Deloitte + Touche LLC

DELOITTE & TOUCHE MƏHDUD MƏSULİYYƏTLİ AUDİTOR CƏMİYYƏTİ AZERBAIJAN

29 sentyabr 2022-ci il

## "AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ SAİR MƏCMU GƏLİR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

***(min Azərbaycan manatı ilə)***

| | 2021 | 2020 |
|---|---|---|
| **GƏLİR** | | |
| Enerji satışı | 1,280,912 | 1,073,179 |
| Elektrik şəbəkəsinə qoşulma xidməti və digər satış gəlirləri | 8,825 | 1,237 |
| Digər gəlirlər | 30,598 | 47,911 |
| | **1,320,335** | **1,122,327** |
| **XƏRCLƏR** | | |
| Yanacaq | (634,845) | (509,649) |
| Köhnəlmə və amortizasiya | (220,644) | (193,814) |
| İşçi xərcləri | (75,525) | (71,775) |
| Təmir və texniki xidmət | (101,754) | (110,054) |
| Mənfəət vergisindən başqa digər vergilər | (37,868) | (38,567) |
| Xammal və materiallar | (6,869) | (14,172) |
| Alınmış elektrik enerjisi | (26,602) | (8,673) |
| Ticarət və digər debitor borclarının və əvəzləşdirilə bilən ƏDV-nin dəyərsizləşməsi ehtiyatında dəyişiklik | (993) | (4,861) |
| Digər xərclər | (84,675) | (73,566) |
| *Əməliyyat mənfəəti* | 130,560 | 97,196 |
| Maliyyə xərcləri, xalis | (27,309) | (35,932) |
| Xarici valyuta mübadiləsindən gəlir / (zərər), xalis | 84,420 | (83,790) |
| Kreditor borcların və kreditlərin silinməsindən gəlir | - | 1,419 |
| Əmlak, tikili, avadanlıq və onların alınması üçün verilmiş avanslar üzrə dəyərsizləşmə zərərinin bərpası / (dəyərsizləşmə zərəri) | 9,654 | (175,133) |
| *Mənfəət vergisindən əvvəl mənfəət / (zərər)* | 197,325 | (196,240) |
| Mənfəət vergisi xərci | (50,098) | (10,684) |
| *İl üzrə zərər gəlir / (zərər)* | 147,227 | (206,924) |
| **İl üzrə digər məcmu gəlir** | | |
| Xarici valyuta ilə əməliyyatların çevrilməsindən yaranan məzənnə fərqləri | (1,503) | (311) |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR / (ZƏRƏR)** | **145,724** | **(207,235)** |

# "AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ
## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
***(min Azərbaycan manatı ilə)***

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| *Uzunmüddətli aktivlər* | | |
| Əmlak, tikili və avadanlıq | 3,288,992 | 2,937,500 |
| Əmlak, tikili və avadanlığın alınması üçün verilmiş avanslar | 32,272 | 111,475 |
| Təxirə salınmış vergi aktivləri | 19,135 | 42,884 |
| Digər uzunmüddətli aktivlər | 79,122 | 89,574 |
| *Cəmi uzunmüddətli aktivlər* | 3,419,521 | 3,181,433 |
| *Qısamüddətli aktivlər* | | |
| Mal-material ehtiyatları | 49,298 | 125,683 |
| Əvəzləşdirilə bilən ƏDV | 299,578 | 304,898 |
| Ticarət və digər kreditor borcları | 136,366 | 91,519 |
| Avans ödənişləri | 66,526 | 34,492 |
| Nağd pul və pul vəsaitlərinin ekvivalentləri | 176,543 | 289,539 |
| *Cəmi qısamüddətli aktivlər* | 728,311 | 846,131 |
| **CƏMİ AKTİVLƏR** | **4,147,832** | **4,027,564** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| *Kapital* | | |
| Nizamnamə kapitalı | 1,760,495 | 1,760,495 |
| Əlavə ödənilmiş kapital | 2,492,299 | 2,440,459 |
| Yığılmış zərər | (2,601,245) | (2,748,472) |
| Məzənnə fərqləri üzrə ehtiyat | (7,010) | (5,507) |
| *Cəmi kapital* | 1,644,539 | 1,446,975 |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Kreditlər və borc vəsaitləri, uzunmüddətli hissə | 1,036,777 | 1,249,465 |
| Dövlət subsidiyaları | 238,171 | 273,697 |
| Təxirə salınmış vergi öhdəliyi | 167,343 | 142,361 |
| Ticarət və digər kreditor borcları | 394,655 | 301,931 |
| *Cəmi uzunmüddətli öhdəliklər* | 1,836,946 | 1,967,454 |
| *Qısamüddətli öhdəliklər* | | |
| Kreditlər və borc vəsaitləri, qısamüddətli hissə | 295,672 | 262,691 |
| Ticarət və digər kreditor borcları | 301,436 | 305,085 |
| Cari mənfəət vergisi öhdəliyi | 2,794 | 2,145 |
| Mənfəət vergisindən başqa vergi öhdəlikləri | 66,445 | 43,214 |
| *Cəmi qısamüddətli öhdəliklər* | 666,347 | 613,135 |
| *CƏMİ ÖHDƏLİKLƏR* | 2,503,293 | 2,580,589 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **4,147,832** | **4,027,564** |

## "AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Məzənnə fərqləri üzrə ehtiyat | Yığılmış zərər | Cəmi |
|---|---|---|---|---|---|
| **1 yanvar 2020-ci il tarixinə qalıq** | **1,760,495** | **2,164,593** | **(5,196)** | **(2,541,548)** | **1,378,344** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (311) | (206,924) | (207,235) |
| Səhmdar yatırımları | - | 275,866 | - | - | 275,866 |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | **1,760,495** | **2,440,459** | **(5,507)** | **(2,748,472)** | **1,446,975** |
| İl üzrə cəmi məcmu gəlir | - | - | (1,503) | 147,227 | 145,724 |
| Digər dövlət müəssisələrinə ötürülmüş xalis aktivlər | - | (25,206) | - | - | (25,206) |
| Səhmdar yatırımları | - | 77,046 | - | - | 77,046 |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | **1,760,495** | **2,492,299** | **(7,010)** | **(2,601,245)** | **1,644,539** |

## "AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
***(min Azərbaycan manatı ilə)***

| | 2021 | 2020 |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| *İl üzrə mənfəət / (zərər)* | 147,227 | (206,924) |
| *Düzəlişlər:* | | |
| Mənfəət vergisi xərci | 50,098 | 10,684 |
| Köhnəlmə və amortizasiya | 220,644 | 193,814 |
| Əmlak, tikili, avadanlıq və onların alınması üçün verilmiş avanslar üzrə dəyərsizləşmənin qaytarılması / (dəyərsizləşmə zərəri) | (9,654) | 175,133 |
| Mal-material ehtiyatları üzrə dəyərsizləşmənin qaytarılması/ (dəyərsizləşmə zərəri) | (1,168) | 6,750 |
| Torpaq, tikili və avadanlığın silinməsi üzrə gəlir | (3,303) | (3,804) |
| Ticarət və digər debitor borcları və əvəzləşdirilə bilən ƏDV üzrə dəyərsizləşmə zərəri | 993 | 4,861 |
| Kreditor borcların və kreditlərin silinməsindən gəlir | - | (1,419) |
| Xarici valyuta mübadiləsindən (gəlir) / zərər, xalis | (84,420) | 83,790 |
| Elektrik şəbəkəsinə qoşulma haqqı və digər satışlar | (2,928) | (202) |
| Maliyyə xərcləri, xalis | 27,309 | 35,932 |
| | 344,798 | 298,615 |
| *Dövriyyə kapitalında hərəkətlər:* | | |
| Mal-materiallarında azalma / (artım) | 88,704 | (28,233) |
| Əvəzləşdirilə bilən ƏDV-də artım (i) | (45,173) | (34,016) |
| Ticarət və digər debitor borclarında artım | (18,737) | (30,490) |
| Avans ödənişləri üzrə artım | (32,034) | (2,155) |
| Ticarət və digər kreditor borclarında (azalma) / artım (ii) | (59,650) | 48,151 |
| Mənfəət vergisindən başqa digər vergi öhdəliklərində artım (i) | 71,880 | 41,216 |
| Əməliyyatlar fəaliyyəti üzrə əldə olunan xalis pul vəsaitləri | 349,788 | 293,088 |
| Ödənilmiş mənfəət vergisi | (20) | (36) |
| Ödənilmiş faiz (ii) | (423) | (381) |
| **Əməliyyatlardan əldə olunan xalis pul vəsaitləri** | **349,345** | **292,671** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Əmlak, tikili və avadanlığın alınması (iii) | (503,538) | (511,347) |
| Əmlak, tikili və avadanlığın silinməsindən əldə olunan pul vəsaitləri | 9,384 | - |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | **(494,154)** | **(511,347)** |
| **MALİYYƏ FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Borc vəsaitlərinin geri ödənilməsi (ii) | - | (1,494) |
| Dövlət subsidiyasının əldə edilməsi | - | 1,878 |
| Səhmdarlar tərəfindən əlavələrin əldə edilməsi (ii) | 55,100 | 145,122 |
| **Maliyyə fəaliyyətlərindən əldə olunan xalis pul vəsaitləri** | **55,100** | **145,506** |
| **NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİNDƏ XALİS AZALMA** | **(89,709)** | **(73,170)** |
| **İLİN ƏVVƏLİNƏ NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **289,539** | **361,375** |
| Xarici valyutada saxlanılan pul vəsaitlərinin və onların ekvivalentlərinin qalıqlarına valyuta məzənnəsindəki dəyişikliklərin təsiri | (23,287) | 1,334 |
| **İLİN SONUNA NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **176,543** | **289,539** |